# Bəhlul Danəndə
## və sehrli xurcun



Azərbaycan nağıllarının ədalətli və hazırcavab qəhrəmanı olan Bəhlul Danəndəni hamı tanıyır. Bəhlul Danəndə – olduqca gözütox, həmişə sözün düzünü danışan, məzlumlara dayaq duran bir adam idi. Bəs Bəhlul Danəndənin uşaqlıqda necə olduğunu bilmək istəyirsinizmi? O hansı məktəbə gedib? Başına hansı əhvalatlar gəlib?

Beləliklə, təsəvvür edin: balaca Bəhlul bu gün Çoxbilmişlər məktəbinə dərsə gedir. Çantanı yığıb heç nəyi unutmamaq asan iş deyil. Bəs siz bunu etməyi bacarırsınızmı?

Bəhlul daxmaya qaçdı və çarpayısının yanında yığılmış əşyaların üzərinə atasının çəkmələrini də atdı.

- Ay bala, bu nədir? –nənəsi Tükəzban soruşdu. - Bütün bunlar sənin nəyinə lazımdır?

- Mən bu gün məktəbə gedirəm! – Bəhlul samovarı bel çantasına salmağa çalışaraq təngnəfəs şəkildə dedi. – Görürsən, ən vacib şeyləri yığıram.

Nənəsi təəccübləndi:

- Atanın çəkmələri nəyinə lazımdır? Bəs yorğan, döşəkcə, yastıq? İsti arxalıq? Fənər? Axı səmada Günəş parlayır! Sən sandığı da özünlə götürəcəksən?





- Birdən Günəşi Əjdaha udsa? Qaranlıq və qorxulu olacaq, yağış yağacaq. Mən isə arxalığımı, çəkmələrimi geyinəcəyəm, sandığın içinə girəcəyəm, çay dəmləyəcəyəm, fənəri yandıracağam və... Hərçənd ki, fənər olmadan da planşetdə oynaya bilərəm...Yaxşı, fənəri evdə saxlayaram. Amma... Sandıq çantaya girmir. Çantanı sandığa qoyaram, sandığı isə...

- Dəvəyə yükləyə bilərsən, – deyə Tükəzban nənə dodaqlarını büzdü. – Ancaq dəvəni mən sənə verməyəcəyəm. Əvəzində sənə başqa şey verəcəyəm...

O, daxmanın divarından qədim yəhər çantasını – xurcunu çıxardı.

- Bu xurcun sənin ulu babana məxsus idi. Sən bu xurcuna nə qədər əşya yığsan da, hamısı yerləşəcək.

- Bəs mən onu qaldıra bilərəm? – Bəhlul həvəslə soruşdu.

- Axı o sehrlidir! – nənə güldü.





Həqiqətən də, bu qəribə xurcuna hər şey yerləşirdi! Daxma isə sanki boşaldı. Bəhlul xurcunu asanlıqla qaldırdı, nənəsi ilə vidalaşdı və məktəbə yollandı.



...Təpənin üstündə qar kimi ağ alaçıq görünür. Qəşəng geyinmiş, rəngbərəng bel çantaları olan uşaqlar hər tərəfdən bu alaçığa doğru axışır...

Gəlin, onlarla birlikdə Çoxbilmişlər məktəbinə daxil olaq və Ustad müəllimlə tanış olaq.

Bəhlul o biri uşaqlarla birlikdə döşəkcənin üzərində əyləşdi və ətrafa baxdı. Keçə divarlarda adi naxışlar əvəzinə üzərində işarələr və oxlar olan şəkillər vardı, sandıqların üstünə köhnə kitablar və naməlum cihazlar yığılmışdı. Bəhlul astadan bir səs eşitdi və başını qaldırdı: günbəzdən lövhəyə doğru gümüş zınqırovlar və rəngli lentlər sallanırdı.

Müəllim alaçığa daxil oldu. O, sadə arxalıq geyinmiş, araqçın taxmış, ağ saçlı, arıq bir kişi idi.

- Salam, Uşaqlar! Mənim adım Məhəmməd Şirvanidir.

Bəhlul təəccübləndi. Tükəzban nənə bu müdrik kişi barədə bəhs etmişdir. Və bu şəxs onların müəllimi olacaq! Ura!

- Məktəbimizdə siz qaydaları və qanunları, bəlağət, astronomiya elmlərini, şahmat və "doqquz daş" oynamağı öyrənəcək, tapmacalar fikirləşmək və onları tapmaq məharətinə – və bir çox digər elmlərə yiyələnəcəksiniz.

- Qaydalar - çox cansıxıcıdır... – Bəhlul dedi. – Doqquz daş oynamağı nənəm onsuz da mənə öyrədib.

- Nənən öyrədibsə, çıxar oynayaq, – müəllim gülərək dedi. Qalib gəlsən, – mənim əvəzimə müəllim sən olacaqsan!

Bəhlulun gözləri parladı. Ay səni! O, içərisində oyun daşları olan kisəni çıxarmaq üçün əlini sehrli xurcuna saldı. Amma orada o qədər əşya var idi ki – onların arasında kisəni tapmaq asan deyildi! Bəhlul əvvəlcə sandığı çıxardı, sonra çəkmələri, döşəkcəni, samovarı, yastığı, futbol topunu, şahmat taxtasını, qotazı... Əşyalar üst-üstə yığıldı. Uşaqlar hay-küy salmağa başladılar, kimsə güldü.





Bəhlul alnının tərini silib dedi:

- Oyun daşlarını tapa bilmirəm... Bəlkə, qotaz oyunu oynayaq?

- Görürəm ki, sən əsl köçərisən, nə əcəb daxmanızı özünlə gətirməmisən? – deyə müəllim gülümsədi.

- Bəli, – Bəhlul qürurla cavab verdi, – mənə məxsus olan hər bir şeyi özümlə gəzdirirəm. Amma daxmanı nənəm vermədi...

- "Mənə məxsus olan hər bir şeyi özümlə gəzdirirəm" – bu fikir qədim bir müdrikə aiddir, – müəllim fikrə gedərək dedi. – Lakin o, xoşbəxtlik üçün insana çox şeyin lazım olmadığını nəzərdə tuturdu. Günəş, hava, azadlıq...

- Və yemək! – Bəhlul hiyləgərcəsinə əlavə etdi.

- Sən haqlısan, – müəllim başını tərpətdi və qalan şagirdlərə müraciət etdi. – İlk dərsimiz bitdi. Siz bu dərsdən nə başa düşdünüz?

- Sandığı məktəbə gətirmək vacib deyil!

- Çantanı yığmazdan əvvəl siyahı tərtib etmək lazımdır!

- Bel çantası yüngül olmalıdır ki, onu daşımaq rahat olsun!

Müəllim şagirdləri təriflədi, sonra isə Bəhlula tərəf döndü:

- Sabah bizim rəsm, gizlənqaç və şahmat dərslərimiz olacaq. Sən öz çantana nələri qoyacaqsan?

- Gizlənqaç? – Bəhlul dalğın halda soruşdu. – Onda nənəmin sandığını mütləq gətirməli olacağam!

O, müəllimə göz vurdu və güldü, uşaqlar da ona qoşuldular.

Bəhlul evə qayıtdıqdan sonra məktəbə apardığı bütün əşyaları çıxarıb yerinə qoydu, sonra isə sehrli xurcunu nənəsinə qaytardı. Sabahkı dərslər üçün çantasını yığarkən, o, çantaya şahmat taxtasını, rəsm a

